

ELMİ-METODİK MƏRKƏZ

FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏNİN 65-Cİ İLDÖNÜMÜ

NAXÇIVAN VETERANLAR KLUBU

FEYRUZ BAĞIROV

ELMİ-METODİK MƏRKƏZ

FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏNİN 65-Cİ İLDÖNÜMÜ

Naxçıvan Veteranlar klubu

Azərbaycan Respublikasının Ümummilli Lideri mərhum Heydər Əliyev bir vaxtlar Azərbaycan xalqının müharibə veteranlarını təbrik edərək aşağıdakı müdrik ifadələri ilə belə demişdir:-"Əziz veteranlar, ... sizin böyük xidmətləriniz var. Sizə dövlətimiz adından və şəxsən öz adımdan hörmət və təşəkkürümü bildirirəm.

...Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci dünya savaşının, Böyük Vətən müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlət orqanının, hər bir namuslu Azərbaycan vətəndaşlarının borcudur.

Müharibə, əmək veteranlarına hər bir gənc hörmət və ehtiramla yanaşmalıdır. Hər bir gənc, gənc nəslimiz veteranlarımızın qəhrəmanlıq nümunələrindən, əmək fədakarlığından özü üçün nümunə götürməlidir. O qəhrəmanlıq nümunələri bugünkü nəslimiz, gələcək nəsillər üçün örnək, məktəb və təcrübə mənbəyi olmalıdır."

Naxçıvan şəhərinin A. Cəlilov küçəsində şəhər Mədəniyyət və Turizm şöbəsinin Veteranlar klubu yerləşir. 1994-cü ildən sahəsi 80 kvadratmetrdən artıq olan keçmiş təqaüdçülər klubu bazası əsasında yaradılmış mədəniyyət müəssisəsində, Naxçıvan şəhər İcra Hakimiyyətinin qərarı ilə ictimai əsaslarla şəhər Müharibə, Əmək, Silahlı qüvvələr və Hüquq-mühafizə Veteranları Şurası da fəaliyyət göstərməyə başlayır.

Veteranlar klubundakı mədəni-kütləvi tədbirlərin keçirilməsinə veteranlar Şurasının sədri 81 yaşlı ziyalı Fərzalı İbrahimov və klubun müdiri Mirvasif Seyidovla birlikdə müvafiq iş planları hazırlayıb həyata keçirirlər.

Azərbaycan Respublikası Müharibə, Əmək, Silahlı qüvvələr və Hüquq-mühafizə veteranları Şurasının yaradılması, Azərbaycan Respublika Milli Məclisinin 2001-ci il 28 iyun tarixli qərarı ilə təsdiq edilmişdir.

Veteranlar klubu ahıl vətəndaşların mənəvi tələbatını və marağını ödəmək məqsədilə asudə vaxtlarını səmərəli təşkili, sağlamlıq qayğıları, maddi yardım şəraitinin təmini, texniki-bədii yaradıcılığa, şəxsi təsərrüfat işlərinə kömək və digər səmərəli işləri təbliğ etmək məqsədilə onların müntəzəm ünsüyyəti üçün yaradılmış birlik formasıdır.

Naxçıvan Veteranlar klubunda ayrıca tamaşa zalı ilə kiçik səhnə də vardır ki, burada müntəzəm surətdə mədəni-kütləvi tədbirlər, görüşlər və xatirə günləri keçirilir. Bundan başqa klubda ayrıca böyük və işıqlı stolüstü idman oyunları zalı da vardır. Kluba gələnlər gündəlik mətbuatla tanış olur, bədii və elmi-publisistik ədəbiyyatları mütailə etməyə səmərəli vaxt tapırlar.

Klubun işçi və veteran kollektivi ölkə Prezidentinin elan etdiyi 2010-cu il- "Azərbaycanda ekologiya ili" kimi sərəncamını alqışlayaraq, iməcilik yolu ilə həyətyanı sahəsindəki ağac və gül kollarına qulluq edirlər.

Veteranlar bilavasitə tələbə gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə edilməsində fəallıq, göstərərək onların asudə vaxtlarındakı görüşlərdə iştirak edirlər.

Veteranlar klubunda ictimai Şura tərəfindən ahılların marağına uyğun tərzdə mədəni-kütləvi tədbirlər, stolüstü idman yarışları, sağlamlıq tədbirləri, mühazirələr, müsahibələr, disputlar, görkəmli şəxslərlə görüşlər, təbiətin qoynuna kollektiv səyahət, sənədli filmlərə və bədii yaradıcılıq sərgilərinə kütləvi baxış və sairə tədbirlər keçirilir.

Naxçıvan MR Ali Məclisi sədrinin 30 may 2006-cı il tarixli 29-03/S saylı sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı" həyata keçirilir. Belə ki, ildə dörd dəfə olmaqla Naxçıvan MR İdman və Gənclər Nazirliyi ilə bərabər, şəhər Əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən Veteranlar klubunda ahıl yaşlı vətəndaşlar arasında stolüstü idman yarışları təşkil edilir.

Yarışlarda birinci, ikinci və üçüncü yerə çıxan qaliblərə İdman və Gənclər Nazirliyinin Fəxri fərmanları və şəhər ƏSMM tərəfindən isə pul mükafatları verilmişdir.

Klubun üzvlərindən 78 yaşlı R. Fəzəliyev və R. Məmmədov, 75 yaşlı R. Atakişiyev, Ə. Zeynalov, Ə. Rəhimov, A. Nəbiyev, N. Hümbətov, R. Mehdiyev, F. Talıbov və S. Fərzəliyev yarışlarda birinci yeri tutmuşlar.

70 yaşlı N. Kərimov, Y. Zalov, D. Bağırov, Q. Əliyev, H. İsmayılov, M. Allahverdiyev, S. Ələkbərov, M. Nəbiyev və E. Baxşəliyev isə ikinci və üçüncü yerlər uğrunda mübarizə aparmışlar.

Naxçıvan şəhər Veteranlar klubuna mütamadi surətdə dövlət qayğısı göstərilir. Belə ki, Naxçıvan MR Ali Məclisi sədri cənab Vasif Talıbovun şəxsi təşəbbüsü ilə klubun binasında əsaslı təmir-bərpa işləri aparılaraq, yumşaq və bərk mebel avadanlıqları, habelə stolüstü idman ləvazimatları yenisi ilə əvəz olunmuşdur.

Veteranlar klubuna təkcə bu il 10 dəst nərd-taxta, 10 dəst şahmat-dama və domino idman əşyaları alınıb gətirilmişdir. Ahılların rahatlığı nəzərə alınaraq, binanın otaqları müasir istilik və elektrik sistemi ilə təchiz olunmuşdur.

Klubda ikinci Dünya müharibəsi iştirakçıları ilə çağrışçı gənclərin görüşləri keçirilmişdir. Tədbirdə müharibə veteranlarından bir neçəsi faşizm üzərində Qələbənin 65-ci ildönümünün siyasi əhəmiyyətindən, Vətənin müdafiəsindən və çağrışçı gənclərin layiqli əsgəri xidmətindən, müstəqil dövlətimizin quruculuğundan və sairə danışaraq onları ruhlandırmışlar.

Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyi və eləcə də, Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzin işçiləri, Naxçıvan Veteranlar klubu ilə yaxından əlaqə saxlayıb əməli və metodiki köməklik göstərirlər.

Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzin "Klub işinin metodikası" şöbəsi tərəfindən, Veteranlar klubunda, faşizm üzərində Qələbənin 65-ci ildönümü münasibətilə kütləvi tədbir keçirilmişdir. Klubda Naxçıvan şəhərindəki mədəniyyət və incəsənət sahəsində çalışan veteran məllimlərlə gənclərin vətənpərvərlik görüşü olmuşdur.

Tədbiri giriş sözü ilə açan şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdiri İmanqulu Əhmədov, tədbir iştirakçılarını qarşıdan gələn 9 may Qələbə bayramı münasibətilə təbrik etmişdir. Veteranlardan Əməkdar müəllim Ə. Əsgərov, filoloji elmlər namizədləri Ə. Muxtarov və H. Arzulu, şairlərdən N. Hacılı və Y. Şirinoğlu faşizm üzərində Qələbənin əhəmiyyətindən, mənfur erməni vandalizminə nifrətdən danışmış və yeni yazdıqları vətənpərvərlik mövzulu şeirlərini oxumuşlar.

Klubda Ərtoğrol Cavid adına şəhər Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbi şağirdlərinin ifasında vətənpərvərlik mahnı və musiqi proqramı səslənmişdir Tədbir iştirakçıları habelə həmin məktəbin uşaq yaradıcılığı sərğisi ilə də tanış olmuşlar.

Naxçıvan şəhər Veteranlar klubunda təqaüdçü ahılların yubileyləri, "gümüş və qızıl toy"larının ənənəvi keçirilməsi işləri, veteranlar Şurası tərəfindən planlaşdırılmışdır...

Veteranlara Azərbaycan hökuməti tərəfindən daimi olaraq qayğı göstərilir. Belə ki, onlara pulsuz tibbi müayinə və dərmanlar verilir, sanatoriya və istirahət evlərinə göndərilir və əlillərə isə kiçik litrajlı "Oka" markalı minik avtomobilləri hədiyyə edilir.

2007-ci ilin 5 oktyabr tarixində Moskvada MDB dövlət başçıları, 1941-1945-ci illərdə Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 65-illiyi yubileyinin təntənəli keçirilməsinə qərar qəbul etmişlər. Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 2009-cu il 22 iyun tarixli 319 №-li sərəncamı ilə "1941-1945-ci illərin Vətən müharibəsində Qələbənin 65-illik yubileyinə hazırlıqla əlaqədar Milli Proqram" təsdiq edilərək yerlərə göndərilmişdir.

Muxtar Respublikadakı bütün mədəniyyət müəssisələri kimi Naxçıvan şəhər Veteranlar klubunda, faşizm üzərində Qələbənin 65-ci ildönümünə hazırlıq işləri görülməkdədir. Klubda siyasi şüarlar asılaraq, stend və foto şəkillərdən ibarət guşələr yaradılmışdır. Sənədli foto şəkillərdə erməni vandalizmi ön plana gətirilərək, torpaq ərazilərimizə erməni separatçılarının işğalı və azərbaycanlı əhaliyə qarşı edilən soyqırımlar əks olunmuşdur.

1941-1945-ci illərin müharibəsində faşizmə qarşı Qələbənin 65-ci ildönümü ərəfəsində Naxçıvan şəhər Veteranlar klubunun üzvləri, müstəqil Azərbaycan Respublikasının torpaq ərazilərinin qorunması üşün Vətənin sadiq əsgəri kimi Qələbə əzmindədirlər.

Klubun veteranlarını 9 may Qələbə bayramı münasibəti ilə təbrik edib və onlara həyatda sağlıq arzulayaq. Bayramınız mübarək olsun!

Feyruz Bağırov

Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyi, Elmi-Metodik Mərkəzin şöbə müdiri.

Az.7000. Naxçıvan şəhəri, H.Əliyev prospekti, № 1.

Telefon: 45-02-52 ; 45-02-57.

Müəllifin veb saytı: www.nuhyurdu.com

E-mail ünvanı: info@nuhyurdu.com